## İNFORMASİYA

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ ONUN TƏMİNATI PRİNSİPLƏRİ

**P.F.KAZIMİ**
**Bakı Dövlət Universiteti**

*Məqalədə informasiya təhlükəsizliyi probleminə müxtəlif istiqamətlərdə baxılır və informasiya təhlükəzliyinin təmini prinsipləri araşdırılır.*

"İnformasiya təhlükəsizliyinin təminatı anlamı insan fəaliyyətinin və həyatının geniş dairəsini əhatə edir. Cəmiyyətin maddi, siyasi, iqtisadi, mənəvi və sosial sahələrini, eləcə də dövlətin fəaliyyəti də bura aiddir. Bu təzahürlər elmi biliklərin müxtəlif sahələrində tədqiq olunur. Məsələn, insan tərəfindən informasiyanın istehsal və istehlakı prosesləri, onun psixoloji fəaliyyətinə informasiyanın təsiri və ziyanlı informasiyaların təsirinin dəf edilməsi üsulları psixologiyada, bioloqyada, fəlsəfədə öyrənilir. Belə tədqiqatın vacib obyektlərindən biri də informasiya və informasiya infrastrukturu ilə bağlı hüquqi vasitələrlə milli maraqların təhlükələrdən qorunması üçün dövlətin fəaliyyətidir. Bu iki əsas faktorla bağlıdır. Birincisi, dövlət sadəcə cəmiyyəti idarə etmir, həm də siyasi həyatın fəal subyekti kimi, ictimai inkişafın məqsədlərinin müəyyənləşdirilməsində iştirak edir, bu məqsədləri əldə etmək üçün dövlət siyasətini işləyib hazırlayır, özündə olan bütün imkanlardan istifadə edərək bu siyasəti həyata keçirir və cəmiyyətə idarəedici təsir göstərir. İkincisi, müasir dünyada cəmiyyətin idarə olunmasında ictimai, hər şeydən əvvəl milli maraqların təmin olunması dövlətin fəaliyyətinin başlıca məqsədidir. Milli maraqlar dövlətin siyasətinə, onun həyata keçirilməsinin üsul və vasitələrinə həlledici təsir göstərir. Milli maraqlara vurulan zərər ən ciddi sosial, iqtisadi və siyasi nəticələrə gətirib çıxara bilər, xalqın varlığı şəraitini dəyişər, hətta onu dağıdıb məh edə bilən amildir.

Təhlükəsizliyin təminatı fərdlərin, təşkilatların, cəmiyyətin, dövlətin, bütünlükdə dünya ictimayətinin fəaliyyətidir. Ziyankarlığın, həyat və inkişaf yollarının bağlanması, fundamental maddi və mənəvi dəyərlərdən məhrum olmağa qadir təhlükələrin aşkara çıxarılıb qarşısının alınması bu fəaliyyətdən asılıdır. Hər hansı obyektə real olan təhlükə, şüurlu varlığın, sosial fərdin, sosial qrupların və cəmiyyətdə təbəqələr arasında olan ziddiyyətlərin aradan qaldırılması, təhlükənin lokallaşdırılması və onun nəticələrinin aradan qaldırılması zamanı belə fəaliyyət gərəkli olur.

Təhlükə təhlükəsizliyin təmin olunmasının obyektdir. Bu halda fəaliyyətin predmeti konkret təhlükələr (hərbi, siyasi, iqtisadi və s.), həmçinin bu təhlükələrin konkret daşıyıcıları (təbii və sosial-ictimai təzahürlər və s.) olacaqdır. Təhlükəsizliyin təminatında fəaliyyətin obyektinin müəyyənləşməsi bu fəaliyyəti qarşılıqlı əlaqə və qarşılıqlı şərtlənmənin vertikal səviyyəsində mürəkkəb sistem formasında təsəvvür etməyə imkan yaradır:

1. Şəxsiyyətin təhlükəsizliyinin təminatı:
2. Təşkilatın təhlükəsizliyinin təminatı:
3. Cəmiyyətin təhlükəsizliyinin təminatı:
4. Dövlətin təhlükəsizliyinin təminatı:
5. Bəşəri (qlobal) təhlükəsizliyinin təminatı.

Təhlükəsizliyin təminatı üçün fəaliyyətin predmetinin müəyyənləşməsi sistemin horizontal səviyyəsini təyin etməyə, yəni təhlükəsizliyin səviyyəsini təyin etməyi imkan verir. Buraya siyasi, hərbi, informasiya, elmi-texniki və s. təhlükəsizliyinin təmin olunmasını aid etmək olar. Şəxsiyyətin, təşkilatın, cəmiyyətin, dövlətin və bütünlükdə beynəlxalq birliyin təhlükəsizliyinin təmin olunması üzrə fəaliyyətin nəticəsi kimi təhlükəsizlik çoxpredmetli olmalıdır. Bir halda bu-şəxsiyyətin, təşkilatın, cəmiyyətin, dövlətin, eləcə də dünya birliyinin həyati vacib dayaqlarına dəyəcək ziyanın qarşısının alunmasında sistemin qabiliyyətidir; digər halda onların müdafiəsinin səviyyəsi, üçüncü halda-təhlükəsizlik tədbirləri sisteminin xüsusiyyətidir. Hər şey dövlətin mövcud olduğu konkret tarixi mərhələdən, onun hakimiyyət, icra və məhkəmə strukturlarının güclü, yaxud zəif olunmasından, ictimai münasibətlərin və istehsal qüvvələrinin xarakterindən asılıdır. Siyasi və iqtisadi böhran, cəmiyyətdə qarışıqlıq və digər təzahürlər şəraitində təhlükəsizlik-sistemin ayrı-ayrı bölmələrinin nisbətən müstəqil şəkildə öz nöqsanlarının öhdəsindən gəlmək bacarığıdır, əlbəttə, burada dövlət institutlarının təşkilatı rolu vacibdir.

Bu gün "informasiya" ifadəsi olduqca geniş və müxtəlif cəhətli ifadə olunur. Elmin elə bir sahəsini tapmaq olmaz ki, orada informasiya istifadə edilməsin. İnformasiyanın nəhəng axını sözün əsl mənasında insanları çətinliyə salır. Məsələn, mütəxəssislərin dediyinə görə elmi biliklərin həcmi hər beş ildən bir ikiqat artır. Bu vəziyyət belə nəticəyə gəlməyə imkan verir ki, XXI əsr informasiyanın nəzəri və praktiki təntənəsi, informasiya əsri olacaqdır.

Belə bir sual ortaya çıxır: bəs informasiyanın vahid bir tərifi varmı? İnformasiyanın təhlükəsizliyi çərçivəsində informasiya hansı anlayışlarda ifadə olunur? Ədəbiyyatda belə bir tərif verilir: İnformasiya – forma və təqdimatından asılı olmayaraq şəxslər, əşyalar, faktlar, hadisələr, təzahürlər və proseslər haqqında məlumatdır. Məlumdur ki, informasiyanın formaları çox müxtəlifdir. Kompütərə yüklənmiş məlumatlar, sink lövhələr, kalkalar, məktublar, yaxud xatirə qeydləri, dosyelər, formulalar, çertyojlar, diaqramlar, məhsulların modelləri və prototipləri, dissertasiyalar, məhkəmə sənədləri və

başqaları. Bütün məhsullar kimi, informasiyanın da istehlakçıları var və buna görə də o, müəyyən istehlak kefiyyətinə malikdir. Həmçinin informasiyanın istehsalçıları olduqu kimi sahibləri də var.

İstehlakcının nöqteyi-nəzərincə istifadə olunan informasiyanın keyfiyyəti əlavə iqtisadi və mənəvi səmərə əldə etməyə imkan yaradır. Sahibkarın nöqteyi-nəzərincə vacib kommersiya informasiyasının gizli saxlanılması məhsul istehsalı, istehlakı və xidmət bazarında sərfəli rəqabət aparmağa imkan verir. Bu, təbii olaraq, məxfi informasiyanın qorunmasına yönəlmiş müəyyən tədbirlərin görülməsini tələb edir. Dövlətin nöqteyi-nəzərincə, demokratik azadlıqrların genişlənməsi informasiya təhlükəsizliyi problemini daha aktual edir.

Təhlükəsizlik adı altında şəxsiyyətin, müəssisənin, dövlətin vacib həyatı maraqlarının xarici və daxili təhlükələrdən qorunması kimi qəbul edəriksə təhlükəsizliyin komponentlərini də müəyyən etmək olar bunlar personal, maddi və maliyə vəsaitləri və informasiyadır.

İnformasiya təhlükəsizliyini "cəmiyyətin formalaşması, vətəndaşların, təşkilatların marağı üçün istifadəsi və inkişafını təmin edən informasiya mühitinin qorunmasının vəziyyəti" kimi başa düşərək, informasiyanın təhlükəsizliyinə ziyan verə biləcək təhlükələri, bu təhlükələrin mənbələrini, onların həyata keçirilməsi üsüllarını və məqsədlərini, həmçinin təhlükəsizliyi pozan digər şərtləri və hərəkətləri müəyyən etmək vacibdir. Təbii ki, bu zaman informasiyanın qeyri-qanuni hərəkətlərdən müdafiə tədbirləri də nəzərə alınmalıdır.

Təcrübə göstərir ki, bu cür mühüm mənbələrin, obyektlərin və hərəkətlərin toplam analızi üçün modelləşdirmə üsullarından istifadə etmək məqsədə uyğundur. Belə modellərdə real vəziyyətlərin imitasiyası formalaşdırılır. Bu zaman yaddan çıxarmaq olmaz ki, model orijinalın eynisi deyil, sadələşdirilmiş variantıdır. Model mürəkkəbliyi nəzərə alınmaqla real hərəkətlərin təsviri üçün kifayət qədər ümumi olmalıdır.

Dekompozisiyanın birinci səviyyəsində informasiya təhlükəsizliyi modelinin komponentlərini təklif etmək olar. Bizim fikrimizcə informasiya təhlükəsizliyinin konseptual modelinin belə komponentləri aşağıdakılar ola bilər:

- təhdidlərin obyektləri;
- təhdidlər;
- təhdidlərin mənbələri;
- qərəzli təhdidlərin məqsədi;
- informasiya mənbələri;
- informasiyanın müdafiəsi üç formada həyata keçirilir.
- İnformasiya müdafiəsinin istiqamətlərini öyrənərək.
- İnformasiya müdafiəsinin yollarını öyrənərək.
- İnformasiya müdafiəsinin vasitələrini öyrənərək.

İnformasiya təhlükəsizliyində təhlükə obyekti, müdafiə olunan obyektlər (personal, material və maliyə dəyərləri, informasiya ehtiyatları) tərkibi, vəziy-

yəti və fəaliyyəti haqqında məlumatlardır. İnformasiya təhlükəsi onun məqsədyönlülüyünün məxfiliyinin, tamlığının və əlçatmazlığının pozulmasıdır. Təhlükələrin mənbələri rəqabət iştirakçıları, cinayətkarlar, korrupsionerlər, siyasi-inzibati-idarə orqanları ola bilir. Təhlükə mənbələri aşağıdakı məqsədləri güdür; qorunan məlumatlarla tanışlıq, tamah və mənfəət məqsədilə onların modifikasiyası, birbaşa maddi və mənəvi ziyan varmaq məqsədilə onları məhv etmək, əvəz etmək və s.

Məxfi informasiyanı qanunsuz yolla əldə etmək ya məlumat mənbələrindən birbaşa, ya da texniki vasitələrlə informasiya sızdırılması və qorunan məlumata qeyri-qanuni yolla müdaxilə etmək vasitəsilə mümkündür. Məxfi informasiya mənbələri: insanlar, sənədlər, nəşrlər, informasiyanın texniki daşıyıcıları, istehsal və əmək fəaliyyətinin təminatı, məhsul və istehsalat tullantıları haqqında da ola bilir. İnformasiya mühafizəsinin əsas istiqamətləri olan hüquqi mühafizə, təşkilatı mühafizə, mühəndis texniki mühafizə informasiya təhlükəsizliyinin birgə həyata keçirilən kompleksini müəyyənləşidir

İnformasiya təhlükəsizliyinin təminatı inkişaf etmiş hər bir dövlətin milli təhlükəsizliyinin başlıca vəzifəsidir. Milli təhlükəsizlikdə onun iqtisadi, mənəvi-əxlaqi və sosial-psixoloji vəziyyəti xüsusi yer tutur. Siyasi sistemlər, başqa ölkələrin iqtisadi və sosial-siyasi inkişafındakı geriləmədən istifadə edərək, milli təhlükəsizliyini təşkil edən iqtisadi, mənəvi-siyasi və sosial-psixoloji durumuna informasiya təsiri göstərmək yolu ilə onların dağılması və zəifləməsi məqsədilə müntəzəm iş aparırlar.

Mənəvi-əxlaqi və sosial-psixoloji tərkibi, milli təhlükəsizliyin spesifikası ondan ibarətdir ki, bu sistemin rəqibləri tərəfindən iş tədricən, kiçik dozalarla, adi adamların görə bilmədikləri qaydada aparılır. Ancaq informasiya-psixoloji hücumların böyük nəticələrini hamı görə bilir. Bu, həmin ölkədə milli təhlükəsizliyin yetərincə təmin olunmadığını, bu ölkənin iqtisadi və sosial-siyasi sistemində rəqib tərəfin müvəffəqiyyətli işini ifadə edir. Bu mənada ABŞ-ın SSRİ-yə qarşı hələ 1944-cü ildə başladığı ideoloji diversiya maraqlıdır. ABŞ-ın siyasi kəşfiyyatının o zamanki rəhbəri A.Dalles öz məruzəsində SSRİ-yə qarşı ideoloji müharibənin strategiyasını və taktikasını, onun milli təhlükəsizliyinin dağılması texnologiyasını göstərmişdi. Bu texnologiyanın əsasını rəqibə informativ-psixoloji təsir mexanizmi təşkil edirdi.

Rusiya Federasiyasının informasiya təhlükəsizliyi doktrinası 2000-ci il sentyabrın 9-da Rusiya prezidenti tərəfindən təsdiq edilmişdir. Orada qeyd edilir ki, Rusiya Federasiyasının milli təhlükəsizliyi informasiya təhlükəsizliyinin təmin olunmasından asılıdır; elmi-texniki tərəqqi prosesində bu asılılıq daha da artacaqdır. Ona görə də, informasiya məkanında Rusiya Federasiyasının milli maraqları informasiya ehtiyatlarına sanksiyalaşdırılmamış əlçatarlığın mühafiəsini, informasiya və telekomunikasiya – həm mövcud, həm də yaradılmaqda olan sistemlərinin təhlükəsizliyini özündə birləşdirir.

İnformasiya hər hansı sistemin təhlükəsizliyinin əsaslarından biridir. Ancaq informasiya anlayışları birmənalı deyildir.

**I anlayış.** Ümumi istehlak səviyyəsində informasiya statistika institutları, proqnozlaşdırma yaxud qərarların qəbuluna yardımçı orqanlar tərəfindən agentlərə iqtisadi vəziyyət haqqında çatdırılmış məlumatların məcmusudur.

**II anlayış** İnformasiya iqtisadi nöqteyi-nəzərindən spesifik məhsuldur. O bazarda qeyri-bərabərliyin (asimmetriyanın) təminatçısıdır, öz xassələrinə görə informasiya istehsalına tabedir.

**III anlayış.** İnformasiya ehtiyatlar, materiya ilə enerji arasındakı adekvatlıqdan yaranır. Cəmiyyətin informasiya ehtiyatı, yaxud informasiya potensialı-sosial əhəmiyyətli informasiyadır. O, cəmiyyətdə fəaliyyət göstərən bütün informasiya sistemlərində saxlanılır və insan fəaliyyətinin bütün sahələrində qərarlar qəbul olunması üçün istifadə edilə bilər.

**IV anlayış.** Bu qrupda informasiya və məlumatlar dəlillər və rəqəmlər arasındakı analoqiyadan meydana çıxır.

I t*əyinat.* İnformasiya – məlumatdır (məlumatların, xəbərlərin, dəlillərin cəmidir):

1) Məzmun, tərkib, baxılan prosesin strukturu, icraçılar, hadisələr, görülən işlər və cərəyan edən proseslər haqqında;

2) Şifahi, yazılı və başqa üsullarla insanlara verilən;

3) Qərarların qəbulu prosesində və qərarların qəbulu üçün yenilik elementləri olan;

4) Onların saxlanma, ötürmə və işlənmə obyekti olan;

5) Toplanmış, işlənmiş və paylanmış.

İnformasiya haqqında belə bir tərif də mövcuddur: İnformasiya onun ifadə formasından asılı olmayaraq şəxslər, əşyalar, faktlar, hadisələr, təzahürlər və proseslər haqqında məlumatdır.

II t*əyinat.* İnformasiya elmi anlam olaraq insanlar arasında, insan və avtomat, avtomat və avtomat arasında məlumat, həmçinin heyvanat və bitkilər aləmi arasında siqnallar mübadiləsidir.

**V anlayış.** İnformasiya-əşyaların, hadisələrin, təzahürlərin, proseslərin haqqında obyektiv həqiqətidir. Burada ətraf mühitin daxili vəziyyətini və təsir imkanlarını duymaq, müəyyən dövrdə təsirin nəticəsini qorumaq, alınmış məlumatın şəklini dəyişdirərək nəticəni başqa əşyaya, təzahürə, prosesə ötürmək daxildir. Axırıncı təyinat informasiyanın bütün rəngarəngliyi haqqında məlumat kimi qəbul edir.

**VI anlayış.** Analogiya edərək informasiya və dəlillər məlumatlar, xəbərlərin fəlsəfi mənada anlayışıdır.

İnformasiya – hər hansı bir təzahür, hadisə haqqında onların aid olduğu sahələrdə istifadəçilərin bilikləri daxilində qeyri-müəyyənlirini azaldan məlu-

matdır (məlumatların, xəbərlərin, rəqəmlərin məcmusudu). İnformasiya heç vaxt yetərincə olmur. Bir şəxsə təzahürlər haqqında bütün informasiyanı bilmək qabiliyyəti verilməmişdir. Başqa sözlə, informasiya kəmiyyətin, keyfiyyətin və qeyri-müəyyənliyin qarşılıqlı əlaqəsinin göstəriciləri kimi xarakterizə oluna bilər.

İnformasiyanın qeyri-müəyyənliyi o deməkdir ki, parametrlərin həqiqi mənası məlum deyildir. İnformasiyanın etibarlılığını 4 kateqoriya fərqləndirir:

1. Etibarlı gözləmə, yəni tam və dəqiq informasiyanın olması.
2. Riskli gözləmə, yəni əldə olan informasiya o qədər də etibarlı deyildir.
3. Subyektiv etibarsız olmayan gözləmə, yəni əldə olan informasiya qeyri-dəqiq və etibarsızdır, lakin yenisini almaq mümkün deyildir.
4. Obyektiv etibarsız olmayan gözləmə. Bu halda hadisənin mümkün real inkişafını qiymətləndirmək üçün məlumatların olmadığı barədə danışılır.

Bu təyinatda aşağıdakılar nəzərə alınmalıdır: informasiya adı altında bütün məlumatlar deyil, yalnız seçimin qeyri-müəyyənliyinin aradan qaldırılmasına aid olanlar başa düşülür; faydalı informasiyanın məqsədyönlü seçimi elan edilir. Bu zaman bütün məlumatları (məlumatların, xəbərlərin, rəqəmlərin məcmusu) deyil, yalnız diqqət obyektinin hansısa yeni, əvvəllər məlum olmayan tərəflərini açan obyektlə əlaqədar qeyri-müəyyənliyi azaldan məlumatları informasiya kimi qiymətləndirmək olar. İnformasiya öz-özünə mövcud olmur; yalnız məlumat (məlumatların, xəbərlərin, rəqəmlərin cəmi) mövcud olur ki, onlardan da informasiya çıxarmaq olur. Ona görə də informasiya variasiyalı və olduqca subyektivdir. Məsələn, mühasibat hesabatında çoxlu məlumat, xəbər, rəqəm var, amma onlardan yalnız profesional hazırlıqlı adam lazım olan informasiyanı ala bilər. Eləcə də hər hansı bir kitabxananın fondundan lazım olan məlumatı əldə etmək üçün kitabxanada tətbiq olunan məlumat axtarışı sistemindən istifadə etmək və buna bələd olmaq və ya bələd olanın yardımından istifadə etmək lazımdır. Məlumatın, xəbərin, rəqəmin informasiyalılığı həmişə nisbidir. Bu nisbilik bir çox faktorlarla, o cümlədən istifadəçinin profesional hazırlıq dərəcəsi və yeni məlumatların alındığı vaxt onun məlumatlılığı ilə müəyyən edilir.

Hər bir informasiya-kəmiyyət və keyfiyyət parametrlərinin (informasiyanın yararlılığının və qiymətliliyinin) dəstidir. İnformasiyanın dəyərliliyini seçimin qeyri-müəyyənliliyinin həllində onun payının böyüklüyü ilə müəyyən edirlər. İnformasiya dəyərli (müəyyən dərəcədə seçimin doğruluğunu artıran); yalan (dezinformasiya), lazımsız (mümkünlüyü dəyişdirməyən) ola bilər. Dezinformasiya qeyri-müəyyənliyi artırır, idarəetmə qərarlarının düzgün qəbulu imkanlarını azaldır. İnformasiyanın qiymətliliyi ancaq qərar seçiminin qeyri-müəyyənliyi probleminin həlli ilə məhdudlaşmır, çünki bu cür "texnologiya"

(seçimin qeyri-müəyyənliyinin azaldılması imkanı) təşkilatın daxilində baş verir, seçimin "istehsalı" isə özü haqda siqnalı başqa təşkilatlarda ifadə edir.

Bu siqnal bazarda bir təşkilatı digəri ilə əlaqələndirir. Bazar iqtisadiyyatı şəraitində təşkilat üçün informasiyanın dəyərliliyi də bundadır.

İnformasiyanın qeyri-müəyyənliyi azaltmaq vasitəsi kimi təyinat elmin və təcrübənin bir çox istiqamətləri üşün məhsuldar olmuşdur. İnformasiya belə təsnif edilir:

1. Əmələ gəldiyi yerə qörə (giriş, çıxış, daxili, xarici).
2. Stabilliyinə görə (dəyişən, daimi).
3. İşləmənin mərhələrinə görə (birinci, ikinci, aralıq, nəticə).
4. Əksolunma üsuluna görə (mətnli, qrafik).
5. İdarəetmə funksiyasına görə (planlı, normativ-məlumat, strateji, operativ, taktiki).
6. Etibarlılıq səviyyəsinə görə (etibarlı, riskli; subyektiv etibarsız; obyektiv etibarsız).
7. İstifadə mənbələrinə görə (faktoqrafik, həqiqi rəqəmləri ifadə edən ekspert dəyərləndirilməsi, elmi-texniki; dəyişkən əhəmiyyət daşıyan informasiya və b.)

Bu istiqamətlərdə informasiya təminatı həyata keçirilir. Bütünlükdə milli təhlükəsizliyin informasiya təminatı cəmiyyətin iqtisadi və sosial-siyasi inkişafının səviyyəsini əks etdirir. Milli təhlükəsizliyin informasiya təminatı-milli təhlükəsizlik konsepsiya, üsullar və vasitələr, informasiyanın işlənməsinin texnologiyası və mexanizmidir.

Göründüyü kimi, daxil və xaric olan informasiya axınının təşkili və mexanizminin formalaşdırılması, doğruluğu, operativliyi, qabaqlayıcı məzmunu və forması baxımından informasiyaya milli təhlükəsizliyin idarə olunmasının substansiyası kimi yüksək tələblər qoyulur. İnformasiya təminatı məqsədilə qərarların qəbul olunması üçün onun analıtık-proqnoztik öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Cəmiyyətin iqtisadi və sosial-siyasi inkişafının, müxtəlif səviyyələrdə islahatların aparıldığı dövrdə əhalinin, müxtəlif dövlət orqanlarının buna reaksiyasının analizi onun vacib metodoloji fəaliyyətidir. Milli təhlükəsizliyin efektliliyi yalnız informasiya təminatının tətbiq olunan konsepsiyası ilə deyil, həm də onun təyinedici və prioritet olmasındadır. Milli təhlükəsizliyin maraqları, milli təhlükəsizliyin strukturu, texniki kadr və maliyyə təminatı əhəmiyyətli dərəcədə informasiyanın transformasiya texnologiyalarından asılıdır.

Milli təhlükəsizliyi təşkil edən ölkənin iqtisadi təhlükəsizliyi iqtisadi informasiyanın bazasında təmin olunur. Bu informasiya (elmi-texniki informasiya ilə müqayisədə) operativliyinə, aktuallaqına görə daha yüksək tələblərlə qarşılaşır. İqtisadiyyat daha çox qeyrimətni informasiya, bazar iqtisadiy-

yatının subyekti olaraq şayələrdən qeyrisəhih informasiyadan tasirlənmək xüsusiyyətinə malikdirlər.

İqtisadi informasiyanın analizi sistemli informasiya üsullu yanaşma fak-toqrafik aspekdə ümumiləşir. Onun əsas nəticələri-müxtəlif iqtisadi konyuk-turların, ənənələrin, trendlərin, müvəqqəti gecikmələrin, proqnozların, kiçik hadisələrin uçotudur. Bu proseslərin əsaslandırılmış elmi analizi bütün sistem-lərdə normal vəziyyətdən yayınmaları qabaqcadan görməyə və iqtisadi təhlükəsizliyin təminatı, bütünlükdə sistemin maraqları üçün lazımi tədbirlər görməyə imkan verir.

Təşkilatların və cəmiyyətin intensiv informasiyalaşması üsulların, mexa-nizmlərin və işləmə vasitələrinin, informasiya vasitələrinin, o cümlədən KİV-lərin təqdimat və imkanlarını nəinki nəzərə almağı, həmçinin onların bütün diapazonundan istifadə etməyi tələb edir. "Milli təhlükəsizlik" anlamı həm də konkret insanın şəxsi təhlükəsizliyini əhatə edir. Ona görə də mətbuat, yığın-caq, yürüş, informasiya hüququ və başqalarının tərkib hissəsi olduğu insan hüquqları da nəzərə alınmalıdır. Amma burada ziddiyyət mövcuddur, şəxsiy-yətin tam azadlığı ilə dövlətin tam azadlığı maraqları həmişə üst-üstə düşmür. Sivilizasiyalı cəmiyyətdə fərdin düşünülmüş tam azadlığı bu anlamlardan irəliqələn təbii məhdudiyyətləri də özündə toplayır. Onlar hazırki cəmiyyətin iqtisadi və sosial-siyasi inkişafının səviyyəsi ilə müəyyən olunur. Deməli, milli təhlükəsizlik insan hüquqlarının məhdudiyyəti ilə deyil, bu cəmiyyətin iqtisadi və sosial-siyasi inkişafının səviyyəsi ilə səciyyələnir.

Sosial, təşkilatı, iqtisadi və başqa sistemlərin təhlükəsizliyi müvafiq informasiya təminatı üzərində qurulur. Ona görə, dövlətin ümummilli təhlükə-sizliyi, cəmiyyətin təhlükəsizliyi, konkret təşkilatın və şəxsiyyətin təhlükə-sizliyi informasiya təminatının effektivliyindən xeyli dərəcədə asılıdır.

İnformasiya mühitinin, informasiya ehtiyatlarının, informasiya texnolo-giyalarının və onların təminat vasitələrinin formalaşdırılması və istifadəsi hüquqi sənədlər vasitəsilə tənzimlənir. İnformasiya təhlükəsizliyi yalnız infor-masiya sistemlərinin, proqram təminatının, rəqəmsal resursların təhlükəsizliyi deyil, geniş əhatəli və kompleks yanaşılması tələb olunan bir tədbirdir.

## ƏDƏBİYYAT

1. *Xələfov A. Kitabxanaşünaslığa giriş. Bakı, 2001, 398 s.*
2. *Xələfov A., Qurbanov A. Kitabxanalarının kompüterləşdirilmə sinin əsasları. Bakı, 2007.*
3. *Панарин И. Технология информационной войны. Москва, 2003. 320 с.*
4. *Юзвишин И.И. Основа информациологии. Москва, 2000, 517 с.*
5. *Болотова А.К. Социальные коммуникации. Москва,2008, 279 с.*

*6. Филин С.А. Информационная безопасность. Москва, 2006, 412 с.*

*7. Информационная безопасность России. М., Экзамен, 2003,560 с.*

*8. Асанович В.Я., Маньшин Г.Г. Информационная безопасность. Минск: Амалфея, 2006, 204 с.*

*9. Партика Т.Л., Попов И.И. Информационная безопасность. Москва: Инфрам, 2007, 368 с.*

*10. Ярочкин В.И. Информационная безопасность. Москва: Академический проект, 2006, 544 с.*

*11. Основы информационной безопасности. Москва, 2006, 544 с.*

*12. Гринберг Т.Э. Политические технологии (PR реклама). Москва: Аспект Пресс, 2005, 317 с.*

*13. Ольшанский Д. Политический PR. СП; Питер, 2003,544 с.*

*14. Əliyev T. İnformasiyanın iqtisadiyyatı. Bakı: Elm, 2008.*

*15. Rüstəmov Ə., Məmmədov M. Sənəd-informasiya daşıyıcıları. Bakı: Yniprint, 2010, 284 s.*

*16. Василенко И.А. Геополитика современного мира. Москва: Юрайт, 2010, 395 с.*

*17. Информатика под ред. Г.В.Алехиной. Москва, 2010, 736 с.*

*18. Афанасьев В.Г. Социальная информация. Москва: 1994, 148 с.*

*19. Kərimov S.T. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 676 s.*

## PROVISION OF INFORMATION SECURITY

**P.F.KAZIMI**

***SUMMARY***

*In the article are considered the problem of information safety in the different directions and principle of provider of the information safety is investigated.*

## ОБЕСПЕЧЕНИЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

**П.Ф.КАЗЫМИ**

***РЕЗЮМЕ***

*В статье рассмотрено основные направления информационной безопасности и принципы обеспечения информационной безопасности.*